BEYNƏLXALQ MÜNASİBƏTLƏRİN TƏHLİLİ MƏRKƏZİ

TƏHLİL

# Gürcüstan-İsrail münasibətlərinə ümumi baxış

Nəsibə Mirzəyeva

Mirzə İbrahimov 8, Bakı, AZ1005, Azərbaycan

(+994 12) 596-82-39, (+994 12) 596-82-41

E-mail: www.aircenter.az, info@aircenter.az

AVQUST 2023

# Gürcüstan-İsrail münasibətlərinə ümumi baxış

## Münasibətlərin cari dinamikası

Bu il Gürcüstan və İsrail rəsmiləri arasında baş tutan görüşlər ikitərəfli münasibətlərdə yeni addımların atılacağına dair bir mesaj mahiyyəti daşıyıb. Belə ki, mayın 3-də Gürcüstanın xarici işlər naziri **İliya Darçiaşvili** İsrail Dövlətinə səfəri çərçivəsində turizm naziri **Haim Katz** ilə görüşüb. Görüşdə İsrail ilə Gürcüstan arasında ticarət, iqtisadiyyat və turizm sahələrində əməkdaşlığın dərinləşdirilməsi istiqamətlərinə xüsusi diqqət yetirilib. Görüş çərçivəsində ilk dəfə olaraq "Gürcüstan Hökuməti ilə İsrail Dövləti arasında turizm sahəsində əməkdaşlıq haqqında Saziş" imzalanıb.[1]

Avqustun 11-də deputat **Givi Mikanadze**nin rəhbərliyi ilə Gürcüstan-İsrail Dostluq qrupunun İsrailə rəsmi səfəri çərçivəsində Knesstin sədri **Amir Ohana** ilə görüşdə 2015-ci ildə iki ölkənin qanunvericilik orqanları arasında imzalanmış qarşılıqlı əməkdaşlıq sazişinə və ondan irəli gələn vəzifələrə diqqət yetirilib. Parlamentlər səviyyəsində münasibətləri dərinləşdirmək məqsədilə Knesset spikerinin Gürcüstana sentyabrın əvvəlində baş tutacaq səfəri təsdiqlənib.[2] Görüş çərçivəsində Knessetin İqtisadi İnkişaf Komitəsinin sədri və üzvləri, Səhiyyə və Təhsil Komitəsinin, habelə Knesstin digər siyasi qurumlarının nümayəndələri ilə də görüşlər keçirilib. Müzakirə olunan məsələlər içərisində Gürcüstan vətəndaşlarının turist kimi İsrail dövlətinə səfərləri, həmçinin Gürcüstan vətəndaşlarının müxtəlif sektorlarda qanuni işə cəlb edilməsi, iş imkanları ilə bağlı məqamlar da əksini tapıb.[3] Gürcü tərəfinin təşəbbüsü ilə Qurcaani və Siğnaği şəhərlərinin İsrail şəhərləri ilə qardaşlaşması təklifi irəli sürülüb.

Avqustun 13-də davam edən səfər çərçivəsində Gürcüstan-İsrail Dostluq Qrupunun üzvləri və Acarıstan Muxtar Respublikası Ali Şurasının sədri **Davit Qabaidze** Batumi ilə qardaşlaşmış Aşdod şəhərinin meri **Yehil Lasr**i ilə görüşüblər. Görüşdə həmçinin şəhər rəhbərləri və din xadimləri, şəhərin keçmiş meri, mədəniyyət və biznes nümayəndələri, gürcü yəhudiləri iştirak ediblər. Batumi və Aşdod, Kutaisi və Aşkelon, Axmeta və Rişon-le-Sion, Telavi və Afula kimi Qurcaani və Siğnaği şəhərlərinin də İsrail şəhərləri ilə qardaşlaşması məsələsi müzakirə olunub. Görüş zamanı tərəflər ölkələrin liman infrastrukturu, bu sahədəki yeniliklər, müasir çağırışlar və ekoloji problemlər

[1] „საქართველოს მთავრობასა და ისრაელის სახელმწიფოს მთავრობას შორის ტურიზმის სფეროში თანამშრომლობის შესახებ“ შეთანხმების დამტკიცებისა და ძალაში შესვლის თაობაზე https://www.matsne.gov.ge/ka/document/view/5824607?publication=0

[2] საქართველოს პარლამენტის ისრაელის სახელმწიფოს პარლამენტთან მეგობრობის ჯგუფი ქნესეთის თავმჯდომარეს შეხვდა https://1tv.ge/news/saqartvelos-parlamentis-israelis-sakhelmwifos-parlamenttan-megobrobis-jgufi-qnesetis-tavmjdomares-shekhvda/

[3] ორმხრივი თანამშრომლობის ასპექტები იყო განხილვის მთავარი თემები საქართველოს პარლამენტის ისრაელის სახელმწიფოს პარლამენტთან მეგობრობის ჯგუფის ვიზიტისას ისრაელის ქნესეთში https://parliament.ge/media/news/ormkhrivi-tanamshromlobis-aspektebi-iqo-gankhilvis-mtavari-temebi-sakartvelos-parlamentis-israelis-sakhelmtsifos-parlamenttan-megobrobis-jgufis-vizitisas-israelis-knesetshi

barədə məlumat mübadiləsi aparıblar. İsrail tərəfi Anaklia limanının yeni layihəsi ilə maraqlanıb, gürcü nümayəndə heyəti ev sahiblərinə ətraflı məlumat verərək qeyd olunan sahədə müsbət təcrübə mübadiləsinə hazır olduğunu bildirib.[4]

Bu görüşlərin ardınca Gürcüstanın baş naziri **İrakli Qaribaşvili** avqustun 16-da İsrailə səfər edib. Səfər çərçivəsində hökumət başçısı İsrail dövlətinin baş naziri **Benyamin Netanyahu** ilə görüşüb. Gürcüstanın İsrail dövlətindəki fövqəladə və səlahiyyətli səfiri **Laşa Jvaniya**nın sözlərinə görə, bu səfər özlüyündə bir çox yeniliklərə, o cümlədən iqtisadi əlaqələrə, Gürcüstana investisiya axınının başlanmasına rəvac verəcək.[5] **İlya Darçiaşvili**nin sözlərinə görə, bu səfər iki ölkə arasında münasibətlərin inkişafına yeni təkandır.[6] Gürcüstanın baş naziri **İrakli Qaribaşvili** "Twitter" sosial şəbəkəsində İsrail dövlətinin baş naziri **Benyamin Netanyahu** ilə görüşünə münasibət bildirib. Hökumət başçısının sözlərinə görə, görüş zamanı ikitərəfli münasibətlərlə bağlı bir sıra məsələlər müzakirə olunub: "*İsrailə səfərim zamanı Baş nazir Benyamin Netanyahu ilə görüşməyimə şadam. Görüş zamanı ikitərəfli münasibətlərlə bağlı bir sıra məsələləri müzakirə etdik. Gələn il biz azad ticarət sazişi üzrə danışıqlara başlayırıq və bu müddət ərzində iqtisadi, müdafiə və təhlükəsizlik əlaqələrimiz möhkəmlənməkdə davam edir. Mən Gürcüstanın suverenliyi və ərazi bütövlüyü məsələlərində İsrailin göstərdiyi dəstəyə görə minnətdaram*".[7]

Ümumilikdə bu görüş mahiyyət etibarilə gələn il fəaliyyətə başlaması planlaşdırılan azad ticarət mexanizminin işə salınması üçün bir başlanğıc xarakteri daşıyıb. Yuxarıda sadaladığımız görüşlərdə İsrail tərəfinin nitqində Gürcüstanda yaşayan yəhudilərin tez-tez xatırlandığı, ikitərəfli münasibətlərin, o cümlədən xalqlar arasında əlaqələrin tarixi keçmişinin vurğulandığı müşahidə olunub.

## Gürcüstan yəhudiləri haqqında

Gürcüstanda yəhudilər tarixi mənbələrə əsasən, ilk dəfə Msxetada b.e.ə. VIII əsrdən məskunlaşmağa başlayıblar. Yəhudilərin ikinci axını Yəhudi-Roma müharibələrindən sonra Babil hökmdarı II Navuxodonosorun e.ə. 587-ci ildə Qüdsü ələ keçirərək yəhudiləri qovmasından sonra baş tutub. Yəhudilərin məhz bu hadisədən sonra Araqvi çayı yaxınlığında məskunlaşması faktı "Kartlis Tsxovreba" əsərində də əksini

---

[4] საქართველოს საპარლამენტო დელეგაცია ისრაელის საპორტო ქალაქ აშდოდს ესტუმრა https://1tv.ge/news/saqartvelos-saparlamento-delegacia-israelis-saporto-qalaq-ashdods-estumra/

[5] ეს ვიზიტი იქნება ძალიან ბევრი ახალი საკითხის დაძვრის საწინდარი - ლაშა ჟვანია პრემიერის ისრაელში ვიზიტზე https://www.businessinsider.ge/ka/es-viziti-ikneba-dzalian-bevri-akhali-sakitkhis-dadzvris-satsindari-lasha-zhvania-premieris-israelshi-vizitze

[6] ილია დარჩიაშვილი - დარწმუნებული ვართ, რომ პრემიერ-მინისტრის ვიზიტი გააძლიერებს და გააღრმავებს იმ უკვე არსებულ ძალიან ნაყოფიერ თანამშრომლობას, რომელიც იქნება ღირებული ებრაელი და ქართველი ხალხისთვის https://www.interpressnews.ge/ka/article/767170-ilia-darchiashvili-darcmunebuli-vart-rom-premier-ministris-viziti-gaazlierebs-da-gaagrmavebs-im-ukve-arsebul-zalian-naqopier-tanamshromlobas-romelic-ikneba-girebuli-ebraeli-da-kartveli-xalxistvis

[7] Irakli Garibashvili 17.08.23. https://twitter.com/GharibashviliGe/status/1692136772262572112?ref_src=twsrc%5Etfw%7Ctwcamp%5Etweetembed%7Ctwterm%5E1692136772262572112%7Ctwgr%5E503fd90a0f9331b57cbdb5461529958b5bee4971%7Ctwcon%5Es1_&ref_url=https%3A%2F%2F1tv.ge%2Fnews%2Firakli-gharibashvili-beniamin-netaniahus-momdevno-wels-viwyebt-molaparakebebs-tavisufali-savachro-shetankhmebis-gasaformeblad-da-am-periodshi-kvlav-dzlierdeba-chveni-ekonomikuri-tavdacviti-da-usafr%2F

tapıb. Gürcü və yəhudi xalqlarının birləşdiyini göstərən əsas əlamət yaranan yerli termin olub, belə ki, gürcü yəhudilərini IV-XI əsrlərdə “huriani kartvelni” (ჰურიანი ქართველნი) adlandırıblar. XIX əsrdən etibarən isə onlar sadəcə olaraq “ebraeli” (ებრაელი) yəni, “yəhudi” adlanırlar. Antropoloji tiplərinə görə gürcü yəhudilərini şərq gürcülərindən ayırmaq mümkün olmasa da, etnoqrafik xüsusiyyətlərinə görə bəzi fərqliliklər özünü göstərməkdədir.

Qeyd edək ki, gürcü soyadları ilə gürcü yəhudilərinin soyadları da fərqlilik təşkil etmir. Bu zaman ərzində Gürcüstanda yaşayan yəhudilərin özünəməxsus dialekti formalaşıb ki, ədəbiyyatda bu dialekti “kivruli” (კივრული) adlandırırlar. Kutaisili yazıçı və jurnalist Nanuli Tskvediani[8] Kutaisi yəhudiləri ilə bağlı apardığı araşdırmada onların sayının XVIII əsrdə xüsusilə artdığını bildirib. Əhalinin bu qismi ticarətlə kifayət qədər yaxşı məşğul ola bildiklərindən zamanla özlərinə xas olan dil “kəşf ediblər”. Sözün kökünün yəhudi, sonluq və şəkilçilərinin gürcü dilindən alındığı bu sözlər “gizli ticarət dili”nin formalaşmasına gətirib çıxarıb. Müəllif bu dilin 1990-cı illərdə xüsusilə, gürcü gəncləri arasında “küçə dili” olaraq istifadəsinə dair də maraqlı məlumat verib.

XX əsrin 70-80-ci illərində yəhudilərin aliyası[*] nəticəsində bu dildən istifadə edənlərin sayı günümüzdə azalıb. 1897-ci ildə Rusiya İmperiyası tərəfindən aparılan siyahıyaalmada 6 mindən çox yəhudi öz ana dilinin gürcü dili olduğunu qeyd edib.[9] 1926-cı il SSRİ siyahıyaalmasında 21 min yəhudinin 96,6%-nin[10], 1970-ci il siyahıyaalmasında isə 43 min yəhudinin bu cavabı verdiyi göstərilib.[11]

## Diplomatik münasibətlərin qurulması

İsraillə Gürcüstan arasında əməkdaşlığa dair müqavilə bazası hələ 1990-cı illərin ortalarında yaranmağa başlayıb. O zaman hər iki ölkə arasında hava əlaqəsi, sərmayələrin qarşılıqlı müdafiəsi və təşviqi, elm, mədəniyyət, turizm və telekommunikasiya sahələrində əməkdaşlıq haqqında rəsmi müqavilələr bağlanılıb.[12] 1992-ci ildə Gürcüstanla diplomatik münasibətlər quran İsrail 1993-cü ildə Tbilisidə səfirliyini açıb.

1990-2000-ci illərdə İsrail Cənubi Qafqaz ölkələri ilə iqtisadi, energetika, hərbi-texniki və humanitar sahələrdə əməkdaşlığa başlayıb. İsrailin Cənubi Qafqaz siyasətində Gürcüstanın önəmli yer tutmasının səbəbini 1970-80-ci illərdə gürcü yəhudilərinin

---

[8] ნანული ცხვედიანი. ებრაელები ქუთაისში. წელიწდეული X. ქუთაისი 2018, s. 191-203. https://dspace.nplg.gov.ge/bitstream/1234/317874/1/Celicdeuli_10.pdf Nanuli Tskhvediani 16.03.2019 https://www.facebook.com/photo.php?fbid=2465438800151694&set=a.128127450549519&type=3&theater

[*] Aliya (ivritcə: “qalxma”) yəhudilərin diaspordan İsrail torpağına immiqrasiyası.

[9] Первая Всеобщая Перепись Населения Российской Империи 1897 Года https://www.prlib.ru/collections/1330124

[10] Первая Всесоюзная Перепись Населения 1926 Года https://www.prlib.ru/section/682310

[11] Всесоюзная Перепись Населения 1970 Года https://sovetnational.ru/netcat_files/64/86/Perepis_SSSR_1970_g..pdf

[12] **Daha ətraflı rəsmi sənədlərə keçid üçün**: Agreement Between The Government Of The State Of Israel And The Government Of The Republic Of Georgia For The Promotion And Reciprocal Protection Of İnvestments 19/06/1995 https://mfa.gov.il/Style%20Library/AmanotPdf/006967.pdf; Agreement Between The Government Of The State Of Israel And The Government Of The Republic Of Georgia On Cooperation In The Fields Of Education, Science and Culture https://mfa.gov.il/Style%20Library/AmanotPdf/4-26500-7971.pdf Agreement Between The Government Of The State Of Israel And The Government Of The Republic Of Georgia Concerning Technical Cooperation https://mfa.gov.il/Style%20Library/AmanotPdf/006958.pdf

İsrailə kütləvi repatriasiyası ilə əlaqələndirmək mümkündür. Təsadüfi deyildir ki, aktiv ikitərəfli münasibətlər nəticəsində 2002-ci ildə Gürcüstandakı Yəhudilərin Ümumdünya Konqresi yaradılıb. Konqresin məqsədləri sırasına Gürcüstan yəhudilərinin birləşdirilməsi, onların dini, mənəvi, mədəni və sosial inkişafının təmin edilməsi, tarixi irsinin qorunması və onun gələcək nəslə ötürülməsi daxildir.[13]

## Münasibətlərin "Vahid Milli Hərəkat" dövrü

2003-cü ilin noyabrında "Qızılgül İnqilabı"ndan sonra hakimiyyətə gələn Mixeil Saakaşvilinin zamanında gürcü hakimiyyəti aktiv şəkildə yəhudi kapitalının ölkəyə daxil olmasına imkan yaradıb. SSRİ zamanından qalan silahların müasirləşdirilməsi istiqamətində rəsmi Tbilisi İsraillə münasibətlərinə olduqca çox önəm verib.

2006-cı ilin 31 oktyabr-1 noyabr tarixlərində Gürcüstan prezidenti Mixeil Saakaşvilinin İsrailə işgüzar səfəri baş tutub. Həmin səfər çərçivəsində Hayfa şəhərində keçirilən "Tranzit – qlobal energetika və siyasi istiqamətlər" adlı konfransda iştirak edən prezident "demokratiyanın yayılmasındakı nailiyyətlərinə, məhkəmə, hüquq müdafiəsi, iqtisadi və maarif sahələrində islahatlarına görə" Hayfa Universitetinin fəxri doktoru adına layiq görülüb.[14] Bundan sonra o, İsrailin milli infrastruktur naziri **Binyamin Ben-Eliezer** ilə görüşərək Azərbaycan, Türkiyə və Gürcüstanla enerji idxalı sahəsində əməkdaşlığı müzakirə edib. Həmin vaxt Saakaşvili həmçinin baş nazir **Ehud Olmert**, baş nazirin müavini **Şimon Peres**, Knessetin sözçüsü **Dalia İtsik** ilə görüşərək ikitərəfli münasibətlərin dinamikası barədə müzakirə aparıb. Bundan əlavə, o, İsrailin işgüzar dairələrinin nümayəndələri ilə söhbət edib, onlara Gürcüstanın xarici investorlara verdiyi imkanlardan danışıb. M.Saakaşvilinin səfəri Rusiya tərəfinin narazılığına səbəb olub.

2007-ci il oktyabrın 22-23-də Gürcüstanın o zamankı xarici işlər naziri **Gela Bejuaşvili** İsrailə səfəri zamanı prezident **Şimon Peres**, Knessetin sözçüsü **Dalia İtsik** və xarici işlər naziri **Tsipi Livni** ilə danışıqlar aparıb. **T.Livni** həmkarı ilə İsrailin Gürcüstan-İran arasındakı dialoqa dair problematik baxışını müzakirə edib. Görüşdə Gürcüstan tərəfi liberal hava hərəkəti rejimi, yeni investisiyaları stimullaşdıran paketin imzalanmasının sürətləndirilməsi, eləcə də mədəni irs obyektlərinin qorunması ilə bağlı məsələləri də qaldırıb. **Gela Bejuaşvili** bildirib ki, Gürcüstan ABŞ ilə olduğu kimi, İsraillə də eyni strateji tərəfdaşlığa malik olmaq istəyir.[15]

**Tsipi Livni**nin İsrailin xarici işlər naziri olduğu dövrdə ikitərəfli münasibətlərin intensivləşməsi <u>Gürcüstanın hökumət dairələrində lobbiçilik fəaliyyətinin olması</u> ilə də izah edilir. Belə ki, 2006-2008-ci illər arasında Gürcüstanın müdafiə naziri **Davit Kezeraşvili**nin yəhudi köklərinin olması səbəbindən hərbi əməkdaşlıq yolunda

---

[13] საქართველოს ებრაელთა მსოფლიო კონგრესი http://www.georgianjews.org/index.php?lang=gr

[14] საქართველოს პრეზიდენტი მიხეილ სააკაშვილი საერთაშორისო კონფერენციას დაესწრო http://www.saakashviliarchive.info/ge/PressOffice/News?p=3755&i=1

[15] ისრაელის საგარეო საქმეთა მინისტრი ქართულ-ირანულ ურთიერთობებზე საუბრობს https://civil.ge/ka/archives/141713

təşəbbüsləri təsadüfi hesab oluna bilməz. Həmin dövr ərzində hərbi texnikaların müasirləşdirilməsi planı hazırlanıb, lakin əksər hissəsi müharibə başladığından tam icra olunmayıb.[16] **D.Kezeraşvili** 1990-cı illərin əvvəllərində nənəsi ilə birgə İsrailə repatriasiya etmiş, lakin qısa müddətdən sonra Gürcüstana qayıdaraq ali təhsilini orada başa vurmuşdur. 2013-cü ildə **D.Kezeraşvili** axtarışa verilən zaman [17] mətbuatda onun İsrailə getmə ehtimalı olduğu bildirilib. Bu baxımdan yerli prokurorluq İsrail dövlətinə müraciət edib, baxmayaraq ki, D.Kezeraşvili orada olsa belə, İsrail qanunvericiliyinə əsasən, öz ölkəsinin vətəndaşını başqa ölkəyə verməyəcəkdi. Lakin sorğu nəticə vermir və müəyyən edilir ki, **D.Kezeraşvili** İsraildə deyil, qısa müddət sonra mətbuatda İsrailin bu məsələyə müdaxilə etmək istəməməsi ilə bağlı xəbərlər yayılıb.

Yəhudi kökənli Gürcüstan nazirlərindən biri də Gürcüstanın sabiq iqtisadi inkişaf naziri **Georgi Arveladze** olub. Təhsilini Təl-Əviv Universitetində alan **G.Arveladze** 1998-ci ilədək İsraildə olub və bilindiyi kimi, o, "Qızılgül İnqilabı"nın fəal iştirakçılarından biridir. İsrail mətbuat orqanlarından birinə verdiyi müsahibədə: *"İsrail heç nədən güclü bir dövlət yaradır. O uzaqgörəndir və hər kəsə göstərdi ki, ölkə daxilində problemlərin və nizamsızlığın olmasına baxmayaraq, ölkə inkişaf edəcək. İsrail bizim müttəfiqimizdir, o bizim aid olduğumuz koalisiyaya daxildir. Bizim çox yaxşı mədəni əlaqələr və iqtisadi münasibətlər qurmağımız üçün əlverişli potensialımız var*" – şəklində İsrail dövlətinə olan rəğbətini ifadə edib.[18]

2007-2008-ci illərdə bu münasibətlər Rusiyanın Gürcüstanla müharibəsindən sonra öz xarakterini dəyişib. 2006-2009-cu illər ərzində mövcud müqavilələrin bazası genişləndirilməsə də, ikiqat vergitutmanın qarşısının alınması haqqında konvensiya və MDB-dən çıxdıqdan sonra İsrailə səfər edən Gürcüstan vətəndaşları üçün vizanın ləğvi haqqında saziş üzərində iş aparılıb. Qeyd etmək lazımdır ki, bu dönəmdə Gürcüstandan İsrailə repatriasiya etmiş vətəndaşlara təqaüdün ödənilməsi məsələsi həllini tapmayıb.[19] Hərbi-texniki əməkdaşlıq fazasına keçən bu münasibətlər 2008-2009-cu il iqtisadi böhranından dolayı iqtisadi sahədə əməkdaşlığın zəifləməsi ilə nəticələnib.

2008-ci ildə İsraillə Gürcüstan arasında hərbi əməkdaşlıqdakı problemlər münasibətlərdə soyuqluğun yaranmasına gətirib çıxarsa da, gərginliyə səbəb başqa amil olub. 2010-cu ilin sonu 2011-ci ilin əvvəlində iki İsrailli iş adamı – **Roni Fuks** və **Zezva Frenkel** Tbilisi Şəhər Məhkəməsi tərəfindən dövlət məmuruna rüşvət verməkdə təqsirli bilinib. R.Fuks 7 il həbs cəzasına və Gürcüstan büdcəsinə 500 min

---

[16] За счет помощи из-за рубежа режим Саакашвили за два года восстановил военный потенциал Грузии 09.08.2010 https://armstrade.org/includes/periodics/mainnews/2010/0809/10325448/detail.shtml

[17] დავით კეზერაშვილზე ძებნა გამოცხადდება https://netgazeti.ge/news/19132/

[18] G.F. Cashman. Georgian Minister Sees Israel as an Economic Model, Jerusalem Post, 9 May 2007, p.18; Грузинский министр считает экономику Израиля образцовой https://www.inopressa.ru/article/09May2007/jpost/georgia.html#

[19] ПРОБЛЕМА ВЫПЛАТЫ ПЕНСИЙ ИЗ БЫВШЕГО СССР - ОБЗОР ПО СТРАНАМ https://ndi.org.il/%D0%BF%D1%80%D0%BE%D0%B1%D0%BB%D0%B5%D0%BC%D0%B0_%D0%B2%D1%8B%D0%BF%D0%BB%D0%B0%D1%82%D1%8B_%D0%BF%D0%B5%D0%BD%D1%81%D0%B8%D0%B9_%D0%B8%D0%B7_%D0%B1%D1%8B%D0%B2%D1%88%D0%B5%D0%B3%D0%BE_%D1%81%D1%81%D1%81%D1%80/

lari (295 min dollar) cərimə ödəməyə məhkum edilib, Z.Frenkel isə 6,5 il həbs cəzası alıb və 100 min lari (60 min dollar) məbləğində cərimə ödəyib.[20] 2011-ci ilin sonunda Gürcüstan prezidenti tərəfindən hər iki iş adamı əfv edilib.[21] Xatırladaq ki, bu məsələnin həllindən əvvəl Gürcüstan xarici işlər nazirinin səlahiyyətlərini icra edən **Nikoloz Vaşaidze** ilə İsrailin Gürcüstandakı fövqəladə və səlahiyyətli səfiri **İtsxak Qerber** arasında ikitərəfli münasibətlərin müzakirə olunduğu görüş keçirilib.[22]

Hadisələrin bu şəkildə cərəyan etdiyi bir zamanda xarici işlər nazirinin müşaviri **Danny Ayalon**un "*İsrailli iş adamlarının həbsinin İsrail-Gürcüstan münasibətlərinə vurduğu ziyan hələ də bərpa edilməyib*"[23] – şəklində fikir bildirməsi vəziyyəti müəyyən qədər izah edə bilər. Şəraitin mürəkkəbliyinə baxmayaraq, qarşılıqlı görüşlər və təşkil edilən tədbirlər ikitərəfli münasibətlərin sahmana salınmasında müəyyən təşəbbüslərin olduğundan xəbər verir. Belə ki, 2009-cu ildə Gürcüstanın baş naziri **Nikoloz Gilauri**nin İsrail prezidenti **Şimon Peres**lə görüşü[24], 2010-cu ildə İsrail tərəfinin Gürcüstanın infrastruktur, iqtisadiyyat və kənd təsərrüfatı nazirlərini qəbul etməsi, Gürcüstanın da öz növbəsində İsrailin turizm naziri ilə keçirdiyi görüşlər buna misal ola bilər. Həmin dövrdə İsrail Gürcüstanın separatçı Abxaziya və Cənubi Osetiya regionlarının sakinləri üçün tətbiq etdiyi neytral səyahət sənədlərini tanıyan doqquzuncu ölkə (Bolqarıstan, Çex Respublikası, Yaponiya, Latviya, Litva, Polşa, Slovakiya və ABŞ-dan sonra) olub.[25]

2012-ci ilin fevralında Tbilisidə İsrail səfirliyinin əməkdaşının (**İtsxak Gerber**) avtomobilinə bomba qoyulması məsələsi mətbuatda bir müddət müzakirə olunub. Həmin vaxt Gürcüstanın Daxili İşlər Nazirliyi qısa bəyanat yayaraq cinayət cəhdi ilə bağlı araşdırmalar apardığını qeyd edib və bildirib ki, hadisədə xarici izlər aşkarlanıb.[26] İsrailin baş naziri **Benyamin Netanyahu** Tehranı Dehlidəki partlayışda və Tbilisidəki hücum cəhdində günahlandırıb.[27] İran isə İsrailin Tehrana qarşı ittihamlarını rədd edib. Bu hadisədən qısa müddət sonra Banqkokda silsilə partlayışlarda təqsirli bilinən iki iranlı həbs edilib.[28] Hadisələrin gedişatındakı oxşarlıq səbəbindən Tbilisidə, eləcə də Dehlidəki hücumların bu şəxslər tərəfindən törədildiyi qeyd edilib. Rəsmi Tbilisi partlayış cəhdinin arxasında kimin olduğunu bildirməsə də, bu şəxslərin həbsindən sonra hadisələr arasındakı oxşarlıq məsələsini təsdiqləyib.

---

[20] რონი ფუქსის და ზეე ფრენკელის სკანდალი, ისრაელ-საქართველოს ბიზნესურთიერთობებზე უარყოფითად აისახა https://ghn.ge/news/97904

[21] პრეზიდენტმა ფუქსი და ფრენკელი შეიწყალა https://netgazeti.ge/law/11755/

[22] საგარეო უწყებაში საქართველო-ისრაელს შორის ორმხრივი ურთიერთობების საკითხები განიხილეს https://ghn.ge/news/47828

[23] Дани Аялон: «Отношения Израиля с Грузией не могут развиваться в ущерб отношениям с Россией» https://vestikavkaza.ru/interview/58909.html

[24] Prime Minister's visit to Israel 14-16/07/2009 https://www.old.gov.ge/print.php?gg=1&sec_id=158&info_id=29303&lang_id=ENG

[25] Israel Recognizes Georgia's Neutral Travel Documents https://old.civil.ge/eng/article.php?id=25141

[26] Georgia Says 'Clear Foreign Trace' in Israeli Embassy-related Car Bomb Attempt https://old.civil.ge/eng/article.php?id=24839

[27] Israeli PM Accuses Iran of Embassy Car Bombs in Tbilisi, New Delhi https://old.civil.ge/eng/article.php?id=24436

[28] Thai police seek fifth suspect in Iranian bombers case https://www.reuters.com/article/uk-thailand-bombers-idINLNE81G01C20120217

## Münasibətlərin “Gürcü Arzusu” dövrü

“Gürcü Arzusu” partiyasının hakimiyyətə gəlməsi ilə iki ölkə arasında münasibətlərin daha sabit olduğunu müşahidə etmək mümkündür. Gürcüstanın İran İslam Respublikasına qarşı sanksiyalara qoşulması və bu ölkənin nüvə proqramı məsələsində İsraillə ortaq mövqeyinin olması ikitərəfli münasibətləri möhkəmləndirən amillərdən biri olub.

2013-cü ilin avqustun 15-18-də Gürcüstanda səfərdə olan İsrailin daxili təhlükəsizlik naziri **Yitzhak Aharonovitch** Gürcüstanın daxili işlər naziri **İrakli Qaribaşvili** ilə görüşündə Gürcüstan və İsrail dövləti arasında cinayətlərlə mübarizə və ictimai təhlükəsizlik sahəsində əməkdaşlıq haqqında birgə bəyanat imzalayıb.[29]

2013-2015-ci illərdə tərəflərin xarici işlər nazirlərinin və onların müavinlərinin görüşlərinin keçirilməsi ilə tərəflər arasında müxtəlif sahədə əməkdaşlığın möhkəmlənməsinə təkan verilib. Bu addımların nəticəsində 2013-cü ildə baş nazir **İrakli Qaribaşvili** ilə İsrail daxili işlər nazirinin müavini **Faina Kirşenbaum** arasında vizasız rejimlə bağlı imzalanan rəsmi sənəd[30] hər iki ölkənin vətəndaşları üçün 90 gün ərzində maneəsiz səyahəti təmin edib.

2013-cü ildə Gürcüstanın müdafiə naziri **İrakli Alasania** İsrailə iki günlük səfəri çərçivəsində həmkarı **Moşe Yalon**la görüşərək iki ölkə arasında gələcək hərbi əməkdaşlığı müzakirə edib. Nazir **İ.Alasania**nın sözlərinə görə, tərəflər müxtəlif istiqamətlərdə əməkdaşlığın perspektivlərini, o cümlədən müdafiə və hərbi sənaye sahəsində əməkdaşlıq imkanlarını müzakirə ediblər.[31]

Hər iki ölkə arasında qanunvericilik orqanları səviyyəsində də əməkdaşlıq mövcuddur. Bu əməkdaşlığın başlanğıcı 2015-ci ildə İsrail Knessetinin spikeri **Yuli Edelştayn**ın Tbilisiyə səfəri zamanı qoyulub. Səfər çərçivəsində imzalanan sənədə əsasən, hər iki ölkənin parlamentləri öz təcrübələrini qarşılıqlı olaraq bölüşməli, əməkdaşlıq sahəsində məlumat mübadiləsi aparmalıdırlar.[32]

Gürcüstanın Müdafiə Nazirliyi 2020-ci il sentyabrın 11-də İsrailin müdafiə şirkətləri ilə iki müqavilə imzalayıb ki, bu da İsrailin daha əvvəl 2008-ci ildə Rusiya ilə müharibə zamanı Gürcüstana pilotsuz təyyarələrin satışını qadağan etməsindən sonra hərbi sahədə əməkdaşlığın yeni fazası sayıla bilər. Hər iki saziş Gürcüstanın hava hücumundan müdafiə sistemlərini gücləndirmək və modernləşdirmək üçün nəzərdə tutulub. Müqaviləyə görə, “Rafael Advanced Defence Systems” şirkəti havadan müdafiə vasitələrini beynəlxalq standartlara uyğunlaşdırmaq və gürcü şəxsi heyətinin təlimini təşkil etmək üçün Gürcüstan Müdafiə Qüvvələri (GDF) ilə əməkdaşlıq edəcək. “Elbit Systems” Gürcüstan Müdafiə Qüvvələrinin elektron sistemlərinin təkmilləşdirilməsinə cavabdeh olacaq. İki müqavilə Gürcüstan Müdafiə Qüvvələrinin

---

[29] Internal Security Minister of Israel Visits Georgia https://old.civil.ge/eng/article.php?id=26362
[30] Georgia and Israel sign visa free agreement https://agenda.ge/en/news/2013/225
[31] საქართველოს და ისრაელის თავდაცვის მინისტრების შეხვედრა თელ–ავივში https://civil.ge/ka/archives/152463
[32] Israeli Parliament Speaker Visits Georgia https://old.civil.ge/eng/article.php?id=28744

təyyarə və helikopter arsenalının NATO standartlarına cavab verməsi üçün nəzərdə tutulub. GDF-nin texnoloji imkanlarını NATO standartlarına çatdırmaqla yanaşı, “Rafael Advanced Defense Systems” və “Elbit Systems” yeni silah sistemlərindən düzgün istifadə etmək üçün GDF personalını yenidən hazırlayacaq.[33]

## Nəticə

İki dövlət arasındakı münasibətlərin daha da aydın olması üçün şərti olaraq “VMH” və “GA” dövrlərinə görə apardığımız bölgü onu göstərir ki, 2003-2013-cü illər ərzindəki “VMH dövrü” münasibətlərin keşməkeşli xarakteri ilə səciyyələndirilə bilər. İkitərəfli münasibətlərin bu dövründə Rusiyanın təsiredici faktor kimi rolunu da sezmiş oluruq. “GA” dövründə “VMH”dan fərqli olaraq, daha sabit bir xətt izlənilib və bu siyasət ilk turizm əməkdaşlığı və azad ticarət sazişi kimi əhəmiyyətli razılaşmaların imzalanması ilə özünün yüksəlişini göstərməkdədir. Təbii ki, burada “GA”nın İranla apardığı ehtiyatlı siyasətin də nəticəsini görmək mümkündür.

**Müəllif: Nəsibə Mirzəyeva, Beynəlxalq Münasibətlətlərin Təhlili Mərkəzində aparıcı məsləhətçi**

[33] Austin Clayton. Georgia Deepens Cooperation with Israel Through Defense Deal 22/11/2020 https://www.caspianpolicy.org/research/security-and-politics-program-spp/georgia-deepens-cooperation-with-israel-through-defense-deal